*“Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olunan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur”.*

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 11 fevral 2015-ci il № 11 (1927) | Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya işgüzar səfəri

***Fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva 51-ci Münhen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasında işgüzar səfərdə olub. Fevralın 7-də Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Ukraynadan əlavə - Avropada həll olunmamış münaqişələr" mövzusunda panel müzakirəsində iştirak edib. Sloveniyanın Prezidenti Borut Pahorun sədrliyi ilə keçirilən paneldə dövlətimizin başçısı çıxış edib və sualları cavablandırıb.***



**Prezident Borut PAHOR:** Prezident Əliyev, Ukraynada üzləşdiyimiz böyük bir böhranın bəzən unutduğumuz dondurulmuş münaqişələrin həll edilməsi üçün yaxşı təşəbbüslərə təkan verə biləcəyinə dair kifayət qədər nikbinsinizmi? Sizin bununla bağlı şərhinizi eşitmək istərdik.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, Ukraynadakı faciəvi vəziyyət uzun illərdir davam edən və həlli uzanan digər münaqişələrə də diqqəti yönəldir. Bizim timsalımızda Ermənistan və Azərbaycan arasında münaqişənin 20 ildən çox tarixi var. Bu münaqişə hətta Sovet İttifaqı dağılmamışdan əvvəl başlamış və dağılandan sonra daha da kəskinləşmişdir. Münaqişə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalı ilə nəticələnmişdir. Ərazilərimizin 20 faizi işğal altındadır və Azərbaycanın tarixi hissəsi olan Dağlıq Qarabağ zəbt olunub. Dağlıq Qarabağdan bütün azərbaycanlılar zorla çıxarılıb. 700 min nəfər əhalinin yaşadığı 7 ətraf rayon da Ermənistanın işğalı altındadır. İşğal olunmuş ərazilərdə hər şey məhv edilib və biz hər hansı bir nəticə əldə etmədən 20 ildən çoxdur ki, danışıqlar aparırıq. ATƏT bu məsələ ilə məşğul olur. ATƏT-in bu münaqişənin həlli ilə məşğul olan, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvünün - Rusiya, Fransa və ABŞ-ın həmsədrlik etdiyi Minsk qrupu adlı xüsusi qrupu var. İyirmi iki ildən artıqdır ki, bu qrup fəaliyyət göstərir, lakin heç bir nəticə hasil olunmayıb.

**Prezident Borut PAHOR:** Nəyə görə? Bunu necə izah edə bilərsiniz?

**Prezident İlham ƏLİYEV:** Düşünürəm ki, Ermənistanın üzərində kifayət qədər beynəlxalq təzyiq yoxdur. Biz bəzən onu görürük ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat olmasa da, bir neçə gün ərzində yerinə yetirilir. Bizə gəldikdə isə 1990-cı illərin əvvəllərində BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamə var və onların heç biri yerinə yetirilməyib. Fikrimcə, təcavüzkara adekvat təzyiq göstərmək üçün vasitəçilərdə siyasi iradənin olmaması bizim bu gün üzləşdiyimiz real vəziyyətə gətirib çıxarıb. Çünki Ermənistan əsasən asılı olan ölkədir. Bu ölkə özünü təmin edə bilmir. Onlar inkişaf edə bilmirlər və hətta onların dövlətçiliyi belə sual altındadır. Ermənistana xarici dəstək göstərilmədən bu ölkə yaşaya bilməz. Onlara dəstək əsasən Minsk qrupuna həmsədrlik edən ölkələr tərəfindən göstərilir. Bu da paradoksdur. Biz burada ikili standartları görürük və bu məsələ bizi məyus edir. Qeyd etmək istəyirəm ki, postsovet məkanındakı bütün münaqişələrə eyni münasibət göstərilməlidir. Azərbaycanın ərazi bütövlüyü indi hər kəsin haqqında danışdığı Ukraynanın ərazi bütövlüyü kimi eyni dəyərə malikdir.

**Prezident Borut PAHOR:** Sizin fikrinizcə, bu münaqişə Ukrayna münaqişəsinin kölgəsində qalırmı?

**Prezident İlham ƏLİYEV:** Əslində, bu münaqişə digər vacib beynəlxalq hadisələrin kölgəsində qalmışdır. Yeri gəlmişkən, Ukrayna məsələsi bu münaqişəyə müəyyən diqqəti cəlb etdi. Hesab edirəm ki, Ukrayna məsələsindən çıxarılan dərslər çox diqqətlə öyrənilməlidir. Ermənistan-Azərbaycan münaqişəsi həll edilmiş olsaydı, bəlkə də Ukrayna indi bu münaqişə ilə üzləşməzdi. Çünki burada eyni ssenari - ərazi bütövlüyünün eyni qaydada pozulması, eyni nəticə, işğal, separatizm var. Bunlar sanki bir-birinin güzgüdəki əksidir. Ona görə də biz beynəlxalq ictimaiyyətdən, dünyanın aparıcı ölkələrindən eyni yanaşmanı gözləyirik. Bizə gəldikdə, postsovet məkanının digər münaqişələrindən fərqli olaraq BMT Təhlükəsizlik Şurasının bu münaqişə ilə bağlı qəbul etdiyi dörd qətnamə var. Bu qətnamələrin icra olunmaması faktı onu göstərir ki, həmin qətnamələri qəbul edən ölkələr öz qərarlarına hörmət etmirlər.

**Prezident Borut PAHOR:** Cənab Prezident, Sizin fikrinizcə Avropa İttifaqının genişlənməsi imkanlarının çatışmazlığı məsələsi problemin mövcud olduğu regionda çətinliklər yaradırmı?

**Prezident İlham ƏLİYEV:** Bizə, yəni Ermənistan-Azərbaycan münaqişəsinə gəldikdə, bu, hesab edirəm ki, əsas məsələ deyil. Çünki bizim Avropa İttifaqına istənilən inteqrasiya ilə bağlı perspektivlərimiz aydındır.

**Prezident Borut PAHOR:** Bəs NATO?

**Prezident İlham ƏLİYEV:** NATO-ya gəldikdə düşünürəm ki, bu, əsasən həmin təşkilatın gündəliyində duran məsələlərdən asılı olacaq. Azərbaycan kimi ölkə və beynəlxalq təşkilatlar arasında münasibətlərdə təşəbbüs həmişə beynəlxalq təşkilatdan gəlir. Bu vaxta qədər NATO ilə Azərbaycan, Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın səviyyəsi hər iki tərəf üçün qənaətbəxş olub. Nə NATO-nun, nə də Avropa İttifaqının danışıqlar prosesinə birbaşa müdaxilə etmək niyyəti yoxdur. Bu iki təşkilatın rəsmiləri həmin faktı dəfələrlə qeyd ediblər. Buna görə də biz əslində, öz resurslarımıza güvənirik. 21 il bundan əvvəl atəşkəs rejimi elan olunanda Azərbaycanın əsas hədəfi dövlət və güclü iqtisadiyyat qurmaq, özümüzə güvənmək idi. Həmin vaxt bizim hələ də ümidimiz var idi ki, beynəlxalq ictimaiyyət ədaləti bərpa etmək üçün nə isə bir iş görəcək. Başlanğıcda bizim çoxlu ümidlərimiz var idi. Bayaq qeyd etdiyim kimi, BMT Təhlükəsizlik Şurasının, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi qətnamələr və digər beynəlxalq təsisatlar həmişə bizim mövqeyimizi dəstəkləyiblər. Lakin zaman keçdikcə biz gördük ki, bu qətnamələr sadəcə kağız üzərində qalır və bunlar sadəcə bəyanatlardır, səfərlərdir, fəaliyyətlərdir, lakin heç bir nəticə yoxdur. Sonra biz başa düşdük ki, dövlətimizin taleyi bizim öz əlimizdədir.

**Prezident Borut PAHOR:** Etimadı bərpa etmək üçün ilk növbədə hansı addım atılmalıdır?

**Prezident İlham ƏLİYEV:** Hesab edirəm ki, bu, çox sadədir. İlk addım işğal olunmuş ərazilərin bir hissəsinin Ermənistan tərəfindən geri qaytarılmasına başlanılmasıdır. Dağlıq Qarabağ və 7 ətraf rayon işğal olunub. Beləliklə, danışıqlar prosesini davam etdirəcəyimizi nəzərə alaraq bu ətraf rayonların bir qisminin geri qaytarılmasına başlanılması mənzərəni dərhal dəyişəcək, hərbi əməliyyatlar dərhal dayanacaq, atəşkəs rejiminə tam riayət olunacaq. Biz artıq Azərbaycan ilə Ermənistan arasında bütün kommunikasiyaların açılacağına dair təklif irəli sürmüşük. Beləliklə, Ermənistanın bizim ərazimizdən dəmir yolu vasitəsilə Rusiyaya çıxışı olacaq. Həmçinin, Türkiyə də Ermənistan ilə bütün kommunikasiyalarını açacaq. Beləliklə, biz hərbi əməliyyatların başlanması ilə əlaqədar istənilən potensial riskləri aradan qaldırmış olacağıq və etimad qurmağa başlayacağıq.

Lakin Ermənistan bizim bütün təkliflərimizə məhəl qoymur. Çünki Ermənistan sülh istəmir. Düşünürəm ki, bu, münaqişənin həll olunmamasının səbəbi ilə bağlı ən vacib məsələlərdən biridir. Çünki bir tərəf sülh, ərazi bütövlüyünün bərpasını istəyir, digər tərəf isə sülh istəmir. Ermənistan hər şeyin dəyişməz qalmasını istəyir. Çünki onların torpaqları işğal altında deyil, onların bizim üzləşdiyimiz bir milyon qaçqın və məcburi köçkün kimi böyük problemi yoxdur. Onlar danışıqlar prosesində sadəcə imitasiya xarakterli müəyyən addımlar atırlar. Bəs nə etmək lazımdır? Necə edək ki, Ermənistan daha çox məsuliyyətli olsun? Biz beynəlxalq təşkilatlarla, ilk növbədə vasitəçilərlə bu məsələlər üzərində işləməliyik. Ermənistan rəhbərliyinə çox aydın siqnal göndərilir: İşğalı dayandırın, işğal olunmuş ərazilərin geri qaytarılmasına başlayın. Azərbaycan bu təklifləri etdi. Biz hətta təkliflər irəli sürdük ki, Dağlıq Qarabağda müəyyən sosial proqramlar icra edə bilərik. Çünki oradakı insanlar çox pis vəziyyətdə yaşayırlar. Biz nəqliyyat, energetika sahələrində əməkdaşlıq edə bilərik. Biz açığıq. Biz Dağlıq Qarabağda yaşayan ermənilərə yüksək muxtariyyət təklif edirik. Lakin bütün təkliflərimiz qəbul olunmur.

**Prezident Borut PAHOR:** Cənab Prezident, Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsində və Gürcüstan böhranında məqsədi varmı? Onun məqsədləri nədir? Bu sualı necə cavablandırardınız?

**Prezident İlham ƏLİYEV**: Bizim üçün ən əhəmiyyətlisi bu münaqişənin həll yolunun tapılmasıdır. Biz ümid edirik ki, həll yolunun tapılmasına şərait yaratmaq üçün Minsk qrupunun həmsədrləri daha çox iş görəcəklər. Hesab edirik ki, Ermənistan-Azərbaycan münaqişəsi həll olunarsa və sülh bərqərar edilərsə bu, bütün tərəflərin maraqlarına xidmət edəcək. Buna görə də əlbəttə ki, regional əməkdaşlığı artırmaq üçün biz çoxlu işlər görürük. Məsələn, bizim Gürcüstanla ikitərəfli əlaqələrimiz regional əməkdaşlığın və Cənubi Qafqazda əməkdaşlığa necə nail olmağın çox yaxşı nümunəsidir. Əgər Ermənistan-Azərbaycan münaqişəsi öz həllini taparsa, o zaman Ermənistan enerji, təhlükəsizlik, nəqliyyatın təhlükəsizliyi kimi layihələrimizə qoşula bilər. Ümid edirik ki, Rusiya hökumətinin də eyni maraqları var. Çünki hər bir ölkə öz sərhədləri xaricində sülh və dostluq mühitinin olmasında maraqlı olmalıdır. Buna görə də hesab edirəm ki, münaqişənin həlli yolunun tezliklə tapılması çox vacibdir. Çünki süni gərginliklərin olması siyasətinin istənilən qonşuya fayda verməsini düşünmürəm. Qonşu sabitlikdə maraqlı olmalıdır, regionda sabitlik isə sizin ölkənizdə və bölgənizdə sabitlik deməkdir. Rusiyanın bir hissəsi Qafqazdır və Qafqaz da böyük bir yerdir. Burada üç ölkə var, lakin eyni zamanda, Rusiyada çoxlu muxtariyyətlər mövcuddur və Azərbaycan ilə Rusiya Federasiyasının Qafqazdakı respublikaları arasında güclü mədəni əlaqələr var.

**Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsi:** Mənim sualım Prezident Əliyevədir və əlbəttə ki, Dağlıq Qarabağla bağlıdır. Prezident Əliyevin də düzgün qeyd etdiyi kimi, Minsk qrupu çərçivəsində ABŞ-ın Fransa ilə birlikdə Rusiya ilə əməkdaşlıq etməsi ola bilsin ki, nadir haldır. Bu üç vasitəçi ölkə - ABŞ, Rusiya və Fransa Dağlıq Qarabağ münaqişəsinin həll olunmasının üç əsas prinsipini göstəriblər. Bu üç əsas prinsip xalqların öz müqəddəratını təyinetmə hüququ, gücdən istifadə etməmək və gücdən istifadə etməklə hədələməmək və ərazi bütövlüyüdür. Vasitəçilər danışıqlar prosesinin tərəflərini həmin üç əsas prinsiplə bağlı üzərlərinə öhdəlik götürməyə çağırıblar. Ermənistan dəfələrlə bu prinsiplərin yerinə yetirilməsi ilə bağlı öz üzərinə öhdəlik götürüb. Mənim sualım cənab Prezidentədir. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında əsas kimi bu üç prinsipin yerinə yetirilməsi ilə bağlı öz üzərinə öhdəlik götürməyə hazırdırmı?

**Prezident İlham ƏLİYEV:** Azərbaycan əlbəttə ki, bu münaqişənin həllində ən maraqlı tərəfdir. Çünki biz torpaqlarımızın geri qayıtmasını istəyirik. Biz qaçqın və məcburi köçkünlərimizin öz evlərinə qayıtmaq hüququna malik olmasını istəyirik. Baxmayaraq ki, onların evləri yoxdur və hər şey məhv edilib. Yeri gəlmişkən, ATƏT faktaraşdırıcı və qiymətləndirmə missiyasını iki dəfə Azərbaycanın işğal olunmuş ərazilərinə göndərib və hesabat yayıb. Bu hesabatda göstərilir ki, hər şey - bütün binalar, qəbiristanlıqlar, məscidlər məhv edilib. Beləliklə, işğal edilmiş ərazilər tamamilə boş torpaqlardır. Məcburi köçkünlərimiz torpaqlarına qayıdandan sonra biz genişmiqyaslı yenidənqurma işlərinə başlamalı olacağıq. Buna görə də ilk növbədə bizim insanların torpaqlarına qayıtmaq hüququ var və biz münaqişənin tez bir zamanda həll edilməsində maraqlı tərəfik.

Problem burasındadır ki, nəyə görə münaqişə öz həllini tapmır? Çünki Ermənistan münaqişənin həll olunmasını istəmir. Ermənistanı beynəlxalq hüquq normaları ilə razılaşmağa vadar edən heç bir mexanizm yoxdur. Hər bir münaqişənin həlli beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Beynəlxalq hüququn bu normaları çox aydın şəkildə BMT-nin Nizamnaməsində və Helsinki Yekun Aktında öz əksini tapıb. Helsinki Yekun Aktında ərazi bütövlüyü prinsipi və öz müqəddəratını təyinetmə ilə bağlı çox aydın tərif var. Biz öz müqəddəratını təyinetmə prinsipinə qarşı deyilik, lakin bu prinsip ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Dağlıq Qarabağ erməniləri və Ermənistan ordusu tərəfindən qovulan Dağlıq Qarabağ azərbaycanlıları öz torpaqlarına qayıtdıqdan sonra öz həyatlarını qurmaq hüququna malik olacaqlar. Lakin bu, ölkənin ərazi bütövlüyünü pozmamalıdır. Ermənistanın cəhd etdiyi kimi, hər hansı bir ölkənin ərazi bütövlüyü güc tətbiq olunaraq dəyişdirilə bilməz. Üstəgəl istənilən ölkənin ərazi bütövlüyü bu ölkə ilə razılıq əldə olunmadan dəyişdirilə bilməz. Bunlar əsas prinsiplərdir. Mən yenə də deyirəm, biz beynəlxalq hüququn əsas prinsiplərinə qarşı deyilik. Lakin Ermənistan ilk növbədə beynəlxalq hüquqa hörmətlə yanaşmalıdır və BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməni yerinə yetirməlidir.

**Bosniya və Hersoqovinanın Baş nazirinin müavini:** Mən bir məsələyə toxunmaq istəyirəm. Biz Srebrenitsa soyqırımının 20 illiyini qeyd edirik. Bu soyqırımları keçmişi dəyişmir, bəs onların gələcəkdə bu cür faciələrin bir daha baş verməməsi və barışığa nail olunmasındakı rolu nədən ibarətdir?

**Prezident İlham ƏLİYEV:** Sualınıza görə çox sağ olun. Siz tamamilə doğru buyurursunuz. Elə bir vəziyyət olmalıdır ki, səhvlərdən nəticə çıxarılmalı və dünyanın digər yerlərində oxşar faciələrin yaşanmaması üçün beynəlxalq ictimaiyyət baş verənlərə biganə qalmamalıdır. Əfsuslar olsun ki, Xocalı faciəsi barədə xüsusilə Avropa ictimaiyyətində geniş məlumat yoxdur. Baxmayaraq ki, 10-dan çox ölkə Xocalı faciəsini soyqırımı kimi tanıyıb. Bu soyqırımı nəticəsində 600-dən çox günahsız insan, o cümlədən 106 qadın, 63 uşaq qətlə yetirilib və bu insanların yeganə günahı ondan ibarət idi ki, onlar azərbaycanlı idilər. Təəssüflər olsun ki, bu günə kimi Ermənistan bu hərbi cinayəti törətdiyini etiraf etməyib. Onlar heç üzr də istəməyiblər. Onlar Xocalıda törətdikləri ilə bağlı beynəlxalq ictimai rəyi səhv istiqamətə yönəltmək istəyirlər. Avropa və ABŞ-dakı fəal erməni lobbisinin fəaliyyəti nəticəsində onlar beynəlxalq ictimaiyyətin bu faciədən diqqətini yayındırmağa nail olublar. Bu faciə ilə bağlı kifayət qədər məlumat yayılmamışdır, baxmayaraq ki, hər şey sənədləşdirilmişdi, lentə alınmışdı. Bu soyqırımından xilas olan adamların şahid ifadələri var. Xüsusi amansızlıqla qətlə yetirilən uşaq və qadınların lentə alınmış görüntüləri var. Ona görə də bu cür halların təkrar baş verməməsi üçün bunu törətmiş insanlar öncə ən azından üzr istəməli və bunun baş verməsini etiraf etməlidirlər. Bu hərbi cinayəti etiraf etməlidirlər ki, o yenə də təkrarlanmasın. Yalnız bundan sonra barışıq ola bilər. Belə olan təqdirdə barışmaq daha asan olacaq. Düşünürəm ki, bu, mümkündür, çünki biz bir yerdə yaşayırdıq. Biz ermənilərlə sülh şəraitində bir yerdə yaşayırdıq. İndi də Bakının mərkəzində təmir olunmuş erməni kilsəsi var. Lakin Şuşada, Ağdamda Azərbaycan məscidləri tamamilə dağıdılıb. İlk növbədə onlar bu məscidləri dağıtmamalı idi, amma indi onlar bunun yanlış olduğunu etiraf etməli və üzr istəməlidirlər. Sonra biz onlarla əlbəttə ki, barışacağıq, çünki gec və ya tez sülh olacaq, iki xalq yenə də birlikdə yaşayacaq.

**Almaniya Bundestaqının üzvü:** Mənim sualım ikili standartlarla bağlıdır. Biz demək olar ki, Krım məsələsinin müzakirəsinə bütün bir gün həsr etdik. Əgər biz Dağlıq Qarabağ münaqişəsindən danışırıqsa bunu Krım məsələsi ilə müqayisə etmək olar, ya yox?

**Ermənistan nümayəndəsi:** Mənim sualım cənab İlham Əliyevədir. Bir neçə gün bundan əvvəl ATƏT-in Minsk qrupu Azərbaycana müraciət edərək Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair üzərinə götürdüyü öhdəliklərə əməl etməyə çağırmışdı. Bu müraciətin ünvanlanması təsadüfi deyil, çünki Azərbaycan tərəfi Dağlıq Qarabağla təmas xəttində və Ermənistanla sərhəddə atəşkəs rejimini davamlı olaraq pozur. Yanvar ayından etibarən atəşkəs ən azı 3 min dəfə pozulub və nəticədə hər iki tərəfdən bir neçə nəfər həlak olub. Mənim cənab Əliyevə sualım budur ki, Azərbaycan bu cür hərəkətlərlə münaqişəni kəskinləşdirmir ki? Bu, yaxın gələcəkdə münaqişənin sülh yolu ilə həll olunması ehtimalını azaltmırmı? Bayaq moderator belə bir sual verdi ki, bu münaqişənin həlli üçün biz minimum olaraq nə etməliyik. Mən Azərbaycanı atəşi dayandırmağa çağırıram.

**Prezident İlham ƏLİYEV:** Mən əvvəlcə Almaniya parlamentinin üzvünün sualına cavab vermək istəyirəm. Əlbəttə ki, Ermənistan-Azərbaycan münaqişəsinin lap əvvəlində üzləşdiyimiz problemlərdən biri də ikili standartlar siyasəti idi. Mən çıxışımın əvvəlində qeyd etdim ki, postsovet məkanındakı bütün münaqişələrə eyni mövqedən yanaşılmalıdır. Azərbaycanın ərazi bütövlüyü Ukraynanın ərazi bütövlüyü kimi eyni dəyərə malikdir. Əgər Ukraynanın ərazi bütövlüyü möhkəm dəstəklənirsə, Azərbaycan da onun ərazi bütövlüyünü çox güclü şəkildə dəstəkləyir. Ermənistandan fərqli olaraq biz BMT Baş Məclisində Ukraynanın ərazi bütövlüyünün lehinə səs verdik. Ermənistan isə Ukraynanın ərazi bütövlüyünün əleyhinə səs verdi. Bu da Ermənistanın ərazi bütövlüyü prinsipinə nə dərəcədə əməl etməsi ilə bağlı bu ölkənin buradakı digər nümayəndəsinin sualına cavabdır. Onlar hətta Ukraynanın ərazi bütövlüyünün əleyhinə səs veriblər. Bu da onların yürütdüyü siyasətin nəticəsidir. Çünki bu ölkə müstəqil deyil. Onlar özləri qərar qəbul edə bilmirlər və həmişə başqalarının arxasınca gedirlər. Lakin ikili standartlar reallıqdır. Xüsusilə sanksiyaların tətbiq olunduğunu gördüyümüzdə biz özümüzə sual veririk: Nəyə görə bu sanksiyalar Ermənistana qarşı tətbiq olunmur? Axı onlar da eyni əməli törədiblər. Niyə onların üzərinə sanksiyalar qoyulmur? Şübhəsiz cavab budur ki, dünyada Ermənistanı bütün potensial və adekvat məsələlərdən qoruyan çox güclü erməni diasporu var. Buna görə də ikili standartlar siyasəti beynəlxalq gündəlikdən çıxarılan kimi Dağlıq Qarabağ münaqişəsi də tez bir zamanda öz həllini tapacaq.

Ermənistan nümayəndəsinin atəş açılması ilə bağlı sualına cavab olaraq bildirim ki, əslində, həmişə günahı bizim üstümüzə atmaq Ermənistan tərəfinin taktikasıdır. Onlar bizim torpaqlarımızı işğal ediblər, beynəlxalq hüquq normalarını pozublar, Xocalıda soyqırımı törədiblər, tarixi və dini abidələrimizi məhv ediblər və bizi günahlandırırlar. Sual isə ondan ibarətdir ki, işğal olunmuş ərazilərdə Ermənistan əsgərlərinin nə işi var? Erməni əsgərinin Ağdamda nə işi var? Əgər o ölmək istəmirsə, onda qoy Ağdama getməsin, olduğu yerdə qalsın, Yerevanda, Gümrüdə, öz ölkəsində qalsın. Sizin özünüz üçün ölkənizdə kifayət qədər yeriniz var. Ermənistanda o qədər də çox insan qalmayıb. Sizin Ağdamda, Füzulidə nə işiniz var? Gərginliyin kimin tərəfindən artırılması ilə bağlı suala cavab olaraq mən keçən ildən bir nümunə gətirə bilərəm. Keçən il beynəlxalq vasitəçilərin fəallığı nöqteyi-nəzərindən əlamətdar bir il olmuşdur. Ötən ilin avqust ayında Prezident Putin mənimlə prezident Sarkisyan arasında bir görüş təşkil etdi. Sentyabr ayında NATO sammiti zamanı ABŞ dövlət katibi Kerri üçümüzün iştirakı ilə belə bir görüş keçirdi. Oktyabrın sonunda Prezident Olland məni və prezident Sarkisyanı Parisə dəvət etdi. Bizim çox yaxşı və konstruktiv görüşümüz oldu. Hər iki tərəf - həm Azərbaycan, həm Ermənistan tərəfi ictimaiyyətə bu görüşün çox uğurlu keçdiyini və təmas xəttində gərginlikləri azaltmağa çalışacağını bəyan etdi. Bundan sonra nə baş verir? Heç 10 gün keçməmiş Ermənistan işğal olunmuş ərazilərdə, xüsusilə Ağdamda genişmiqyaslı hərbi təlimlər təşkil edir. Onların özlərinin verdiyi məlumata görə, işğal olunmuş ərazilərdə 47 minlik ordunun iştirakı ilə təlimlər keçirilmişdir. Aviasiyadan, helikopterlərdən istifadə olunmuşdur. Üç gün ərzində bizim ordumuz səbr edərək heç bir reaksiya göstərməmişdir. Sonra onlar "Mİ-24" hərbi helikopterlərini bizim mövqelərimizə istiqamətləndirərək hücuma keçdilər. Bizim ordumuz helikopterləri vurmaq məcburiyyətində qaldı və onlardan biri vuruldu. Onlar Azərbaycanı günahlandırmaq üçün bundan bəhanə kimi istifadə etdilər. Onlar təxribatlar törədir, bizi təhrik edir, bizi gərginliyi azaltmağa sövq etmək üçün çoxlu səylər göstərən Fransa, Rusiya və ABŞ-ın dövlət başçılarına hörmətsizlik edirlər, heç bir məhəl qoymurlar. Onlar hesab edirlər ki, istədikləri hər şeyi edə bilərlər və buna görə cəzalandırılmayacaqlar. Bu, əsas səbəbdir. İndi isə onlar bizi günahlandırırlar və bizə deyirlər ki, atəş açmayaq. Mənim Ermənistana mesajım odur ki, işğalı dayandırsın. İşğalı dayandırdığı an bizdə sülh də, qarşılıqlı ünsiyyət də, barışıq da olacaq. Bunun baş verməməsinin səbəbi odur ki, erməni əsgəri Ağdamda, Füzulidədir.

* * *

Panel müzakirəsində Serbiyanın Baş naziri Aleksandr Vuçiç, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Xorvatiya Baş nazirinin birinci müavini, xarici və Avropa işləri üzrə nazir Vesna Pusiç də iştirak ediblər.

**AzərTAc-ın materialları əsasında**

# İrimiqyaslı təlimlər sona çatıb




***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazirliyin və Silahlı Qüvvələrin rəhbər heyəti, birlik və birləşmələrin komandir və qərargah rəisləri, o cümlədən təlimlərə cəlb olunan məsul zabitlərin iştirakı ilə irimiqyaslı təlimlərin yekunlarına dair müşavirə keçirilib.***

Toplantıda çıxış edən Müdafiə naziri döyüş şəraitinə maksimal uyğun, praktiki atışlarla icra olunan təlimləri təhlil edərək şəxsi heyətin döyüş hazırlığını, peşəkarlığını yüksək qiymətləndirib, belə təlimlərin keçirilməsinin vacibliyini diqqətə çatdırıb və komandir-rəis heyəti qarşısında müvafiq tapşırıqlar qoyub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə naziri Türkiyə Milli Müdafiə Nazirliyinin Xəritə Baş Komandanını qəbul edib



***Fevralın 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikası Milli Müdafiə Nazirliyinin Xəritə Baş Komandanı general-leytenant Burhanettin Aktının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

Görüşdə hər iki ölkənin Silahlı Qüvvələrinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, ikitərəfli hərbi əməkdaşlıq məsələlərinin əhəmiyyəti, regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin bölgə üçün vacibliyi müzakirə edilib.

Sonra Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında əlaqələrin perspektivləri və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin ölkəmizdəki hərbi attaşesi briqada generalı Hasan Nevzat Taşdeler iştirak edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə naziri Bolqarıstanın İqtisadiyyat nazirini qəbul edib

***Fevralın 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının İqtisadiyyat naziri Bojidar Lukarskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında müxtəlif istiqamətlərdə münasibətlərin uğurla inkişaf etdiyindən, o cümlədən hərbi sahədə də əməkdaşlığın genişləndirilməsindən məmnunluq ifadə olunub.

Müdafiə naziri qonaqlara regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib.

Sonra ölkələrimiz arasında ikitərəfli münasibətlərə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Görüşdə Bolqarıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Maya Hristova iştirak edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcək

Fevralın 9-dan 13-dək Oberammerqau şəhərində (Almaniya) "Sahib ölkə dəstəyi" kursu, Ankara şəhərində (Türkiyə) "Kiber məkanın terrorçular tərəfindən istifadəsi" kursu keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq fevralın 10-da Tərtər rayonunun Seysulan kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Saymon Tiller keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Yevgeni Şarov və Piter Svedberq keçiriblər.

# Müdafiə Nazirliyi və Azərbaycan Dövlət İqtisad Universitetinin birgə təşkilatçılığı ilə "Vətənin çağırışına hazırıq!" devizi altında vətənpərvərlik tədbiri keçirilib





***Fevralın 10-da Azərbaycan Dövlət İqtisad Universitetində "Vətənin çağırışına hazırıq!" devizi altında vətənpərvərlik tədbiri keçirilib. Tədbirdə universitetin professor-müəllim və tələbə heyəti ilə yanaşı, Müdafiə Nazirliyinin general, zabit və əsgərləri də iştirak ediblər.***

Universitetin rektoru professor Ədalət Muradov dəvəti məmnuniyyətlə qəbul edərək "Vətənin çağırışına hazırıq!" devizi altında keçirilən tədbirdə iştirak edən qonaqları salamlayaraq bu kimi vətənpərvərlik tədbirlərinin vacibliyini vurğulayıb.

Professor qeyd edib ki, dövlət müstəqilliyimizin, milli təhlükəsizliyimizin, xalqın əmin-amanlığının təminatçısı olan ordumuz son illərdə daha da möhkəmlənmiş, qüdrətlənmiş, mütəşəkkil hərbi qüvvəyə çevrilmişdir. Azərbaycan Ordusu regionun ən güclü ordusudur və istənilən təcavüzün qarşısını almağa, hücum tapşırığını yerinə yetirməyə qadirdir. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətində ordu quruculuğu prioritet məsələlərdən biridir. Silahlı Qüvvələrə, onun şəxsi heyətinə ölkə rəhbərliyi tərəfindən hərtərəfli diqqət və qayğı göstərilir. Ordunun maddi-texniki bazası hər gün möhkəmlənir, müasir döyüş texnikaları, silah-sursatlar alınır. Keçirilən irimiqyaslı təlimlər göstərir ki, Azərbaycan Ordusu quruda, dənizdə və havada - istənilən iqlim şəraitində qarşısına qoyulmuş hər hansı bir vəzifəni yerinə yetirməyə hər an hazırdır.

Sonra rektor tədbirdə iştirak edən generallara, cəbhə bölgəsindən, ön xətdən gəlmiş zabit və əsgərlərə üzünü tutaraq deyib: "Bütün xalqımız kimi Azərbaycan İqtisad Universitetinin professor-müəllim və tələbə heyəti də ordumuzu sevir, ona arxalanır, ona güvənir. Ordumuzun gücü isə mənsub olduğu ən yeni texnikaların: təyyarələrin, gəmilərin, tankların, artilleriya qurğularının, hava hücumundan müdafiə komplekslərinin və s. çoxluğu, müasirliyi, səmərəliliyi ilə yanaşı, həm də şəxsi heyətin peşəkarlığında, vətənpərvərliyində, mənəvi-psixoloji, fiziki hazırlığının yüksəkliyindədir. Ordumuzun gücü həm də xalq ilə onun monolit birliyində, hər bir döyüşçünün ruh yüksəkliyindədir. "Hər şey ordu üçün, hər şey qələbə üçün!" ifadəsi bu gün hər birimizin şüarı olmalıdır".



Çıxışının sonunda professor Ə.Muradov ulu öndərimiz Heydər Əliyevin bu kəlamını xatırladaraq deyib ki, Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini təmin etmək kimi müqəddəs vəzifəni yerinə yetirən ordumuz xalqın övladıdır və onun formalaşmasına, inkişafına müntəzəm qayğı və diqqət göstərmək hər bir dövlət təşkilatının, yerli orqanların, özəl qurumların, hər bir Azərbaycan vətəndaşının borcudur.

Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani cəbhə bölgələrindəki hərbi hissələrdən, birbaşa ön xətdən tədbirə gəlmiş döyüş və mənəvi-psixoloji hazırlıqda fərqlənən əsgər və zabitləri tədbir iştirakçılarına təqdim edib.

Son zamanlar düşmənin kəşfiyyat-təxribat qruplarının qarşısının alınmasında, mövqelərimizi intensiv atəşə tutan Ermənistan silahlı qüvvələrinin susdurulmasında xüsusi rəşadət və şücaət nümunələri göstərmiş İlkin Muradovu, Təhmasib Abdullayevi və başqalarını tədbir iştirakçıları alqışlarla qarşılayıblar. Onlar cəbhə xatirələrini danışaraq əsgərlərimizdə döyüş və vətənpərvərlik ruhunun yüksək olduğunu, postlarında hər an ayıq-sayıq dayandıqlarını diqqətə çatdırıblar.

Sonra döyüşdə fərqlənən hərbi qulluqçulara rektor tərəfindən qiymətli hədiyyələr təqdim olunub.

Qarabağ müharibəsinin iştirakçısı, general-leytenant Yaşar Aydəmirov, Milli Məclisin deputatı, professor Xanhüseyn Kazımlı, Əfqanıstan və Qarabağ müharibələrinin veteranı, Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi Əzizağa Qənizadə, polkovnik-leytenant Elmar Zeynalabdinov və başqalarının çıxışları da maraqla qarşılanıb.

Hacıqabul rayonunun Nəvahi kəndindən gəlmiş şəhid qardaşı Elvin Qasımov çıxış edərək deyib ki, qardaşım Vüqar düşmən atəşlərini susdurarkən şəhid olub. Hələ onun qırxı çıxmayıb. And içirəm ki, qardaşımın qisası qiyamətə qalmayacaq. Mən bu günlərdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi qardaşımın səngərində xidmətimi davam etdirəcəyəm.

Silahlı Qüvvələrin mahnı və rəqs ansamblı vətənpərvərlik marşı, mahnı və rəqslərindən ibarət geniş konsert proqramı ilə çıxış edib. Respublikanın xalq artistləri Mübariz Tağıyev, Zaur Rzayev yeni mahnılarını ifa ediblər.

Rasim Şərifov Azərbaycan Dövlət İqtisad Universitetinin professor-müəllim və tələbə heyətinin Azərbaycan əsgərinə ünvanlanan təbrikini tədbir iştirakçılarına çatdırıb.

Müraciətdə deyilir:

- Əziz qardaşlarımız, torpaqlarımızın bir hissəsi 20 ildən çoxdur düşmən tapdağındadır. Yolumuzu gözləyən əzəli və əbədi torpaqlarımızın intizarına son qoymalıyıq. Cənnət Qarabağımızı düşmən tapdağından biz birlikdə azad etməliyik. Əmin ola bilərsiniz ki, Azərbaycan Dövlət İqtisad Universitetinin professor - müəllim və tələbə heyəti də Qarabağ uğrunda savaşda sizinlə bir səngərdə olacaqdır. Biz də bütün xalqımız kimi Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hər bir əmrinə hər an hazırıq.

Möhtərəm Prezidentimiz ordumuza mütəmadi olaraq diqqət və qayğı göstərir. Siz bu etimadı əməli fəaliyyətinizlə doğruldur və əminik ki, bundan sonra da ləyaqətlə doğruldacaqsınız.

Cəbhə bölgələrindən Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini tez-tez pozduğu, mövqelərimizin atəşə tutulduğu xəbərlərini alırıq. Sizin səngərdə ayıq-sayıqlığınız, qorxmazlığınız, dözümlülüyünüz, cəsarətiniz, düşmənə zərbələr vurmağınız bizi sevindirir. Biz yaxşı bilirik ki, siz öz geniş sinənizi Vətənə sipər etmisiniz, mübariz keşikdə mətin, dönməzsiniz.

Sizin xidmətləriniz ölkə rəhbərliyi tərəfindən həmişə yüksək qiymətləndirilir, şəhidlərimizin xatirəsi əziz tutulur, onlar əsgəri ənənələrə uyğun olaraq yaylım atəşləri altında böyük izdihamın iştirakı ilə son mənzilə uğurlanır. Biz inanırıq ki, tezliklə şəhidlərimizin intiqamı alınacaq və bayrağımız Xankəndidə, Şuşada, Laçında dalğalanacaqdır.

Vətən keşiyində, müqəddəs torpaqlarımızın keşiyində möhkəm dayanan Azərbaycan əsgəri! Xalqımız sizə arxalanır...

Universitetin rektoru professor Ə.Muradov və Azərbaycanın Milli Qəhrəmanı general-mayor Fəxrəddin Cəbrayılov tədbirin təşkilində göstərdiyi köməyə görə Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlıqlarını bildiriblər.

Sonda universitetin rəhbərliyi tərəfindən cəbhə bölgələrindən gələn hərbi qulluqçular üçün təşkil olunmuş ziyafətdə vətənpərvərlik mövzusunda söhbət davam edib və hər bir tədbir iştirakçısı Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduğunu bir daha bildirib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# General Əlağa Şıxlinskinin 150 illiyinə həsr olunmuş möhtəşəm tədbir keçirilib

***Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 7 fevral 2015-ci il tarixində Qazax Olimpiya İdman Kompleksində görkəmli hərbi xadim general-leytenant Əlağa Şıxlinskinin 150 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.***




Tədbir başlamazdan öncə qonaqlar Heydər Əliyev parkına gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi qarşısına gül dəstələri qoyub, ulu öndərin xatirəsini hörmət və ehtiramla yad ediblər. Qazaxın görkəmli şəxsiyyətləri parkı da ziyarət olunub.

Bayramsayağı bəzədilmiş Qazax Olimpiya İdman Kompleksinin qarşısında qonaqları və tədbir iştirakçılarını general Şıxlinskinin davamçıları olan milli ordumuzun artilleriyaçıları qarşılayaraq teatrlaşdırılmış kütləvi mərasim keçiriləcək arenaya dəvət ediblər.

Mayor Rafiq Hacıyevin dirijorluq etdiyi hərbi orkestr qonaqları və iştirakçıları "Topçular marşı" ilə salamlayıb.





Müdafiə Nazirliyinin zabiti, tədbirin ssenari müəllifi və quruluşçu rejissoru Abdulla Qurbani çıxış edərək xatırladıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin noyabr ayının 20-də general Əlağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında sərəncam verib və bu sərəncamdan irəli gələn vəzifələr respublikamızda uğurla həyata keçirilir. Hazırda Silahlı Qüvvələrin bütün hərbi hissə, birlik, birləşmə və xüsusi təyinatlı təhsil müəssisələrində də silsilə yubiley tədbirləri təşkil olunur. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən yerli icra hakimiyyəti orqanları , nazirliklər, idarə, müəssisələr və qeyri hökumət təşkilatları ilə də birgə tədbirlərin keçirilməsi nəzərdə tutulub. Qazaxda reallaşan bugünkü kütləvi vətənpərvərlik bayramı da həmin tədbirlərdən biridir.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov dəvəti məmnuniyyətlə qəbul edərək yubiley tədbirində iştirak etmək üçün generalın doğulub boya-başa çatdığı Qazax rayonuna gələn qonaqları; Müdafiə Nazirliyinin məsul əməkdaşlarını, millət vəkillərini, elm, mədəniyyət və incəsənət xadimlərini, müharibə və əmək veteranlarını, Şıxlinski soyadını fəxrlə daşıyan Şıxlinskiləri rayon ictimaiyyəti adından salamlayıb. Sonra A.Əsgərov general Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında Prezident sərəncamının bütün xalqımız kimi Qazax əhalisinin də böyük sevincinə səbəb olduğunu qeyd edərək bu tarixi sərəncama görə möhtərəm Prezidentimiz İlham Əliyevə generalın həmyerliləri adından dərin minnətdarlığını bildirib və bu tədbirin həm ordunun şəxsi heyətinin, həm də xalqın döyüş və vətənpərvərlik ruhunun daha da yüksəldilməsində mühüm əhəmiyyət kəsb edəcəyini vurğulayıb. İcra başçısı mərasim iştirakçılarını əmin edib ki, bütün xalqımız kimi qazaxlılar da Heydər Əliyev ideyalarına sadiqdirlər və Vətən uğrunda Ali Baş Komandanın hər bir əmrinə hər an hazırdırlar. Müdafiə nazirinin şəxsi heyətlə iş üzrə müavini-Şəxsi Heyət Baş İdarəsinin rəisi, general-leytenant Kərim Vəliyev Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun adından mərasim iştirakçılarını təbrik edib.



Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlərdə görkəmli hərbi xadimlərin, sərkərdələrin xatirəsinin əbədiləşdirilməsi istiqamətində gördüyü tarixi xidmətlərdən bəhs edən nazir müavini bu ənənələrin möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini tədbir iştirakçılarının nəzərinə çatdırıb. General K.Vəliyev Qazax mahalının hərb tariximizə bəxş etdiyi ilk hərbçi topoqraf general İbrahim ağa Vəkilovun, ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbovun, Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyevin, qazaxlı milli qəhrəmanların da adlarını xatırladaraq böyük fəxrlə bildirib ki, qazaxlı gənclər bu gün də hərbi peşələrə böyük maraq göstərir, milli ordumuzda Vətənə sədaqətlə xidmət edirlər. Bütün cəbhəboyu bölgələrdə, eləcə də Qazax rayonunun müdafiəsində düşmən təxribatlarının qarşısı mərdliklə alınır, mütəmadi olaraq atəşkəs rejimini pozaraq mövqelərimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin vaxtında və layiqincə cavabı verilir. Həmişə olduğu kimi, qazaxlılar bu gün də ordumuzun bu bölgədəki hissə və bölmələrinə dayaqdırlar, ordu ilə xalqın birliyi sarsılmazdır.

General-leytenant Kərim Vəliyev görkəmli hərb xadimi general Şıxlinskinin yubileyinin keçirilməsi ilə bağlı bu tarixi sərəncama görə Silahlı Qüvvələrin şəxsi heyəti adından bir daha möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və çıxışını ulu öndərimizin bu sözləri ilə tamamlayıb: " Ataların, babaların, əcdadlarımızın qəhrəmanlıq ənənələri bu gün də, gələcəkdə də müstəqil Azərbaycanı qorumaqda və onun müstəqilliyini əbədi etməkdə bizim üçün örnəkdir".

General Əlağa Şıxlinskinin vaxtilə komandanlıq etdiyi Azərbaycan Əlahiddə Korpusunun piyada və süvarilərinin formasını geymiş əsgərlərin Cümhuriyyət ordusunun döyüş bayrağı altında, həmin ordunun varisi olan müasir Azərbaycan Ordusunun şəxsi heyətini təmsil edən hərbi qulluqçuların isə qoşun növlərinin bayraqları altında milli hərbi marşlar ifa edərək arenaya daxil olması ilə başlanan tədbir sonra təlimlərdə, döyüş və mənəvi-psixoloji hazırlıqda xüsusi nailiyyətlər qazanmış milli artilleriyaçılarımızın, cəbhə bölgələrindən gələn qazaxlı əsgər və zabitlərin, xüsusi təyinatlı təhsil müəssisələrinin Qazax rayonundan olan kursantlarının fəxri keçidi ilə davam edib.

General Şıxlinskini (xalq artisti Alim Məmmədov) bütün tədbir iştirakçıları ayaqüstə, sürəkli alqışlarla, gülçiçəklə qarşılayıb. Sonra Azərbaycanın ilk Hərbiyyə naziri Səməd bəy Mehmandarov (Zöhrab İmamquluyev), Molla Pənah Vaqif (əməkdar artist Eldəniz Tağıyev), Molla Vəli Vidadi (əməkdar artist Ramiz Vəliyev), generalın ömür-gün yoldaşı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin qurucusu Nigar xanım (Kəmalə Məmmədova) və generalın digər müasirləri onu təbrikə gəliblər.

İki dövlətin, bir millətin qəhrəmanı olan Nuru paşanın (əməkdar artist İlham Hüseynov) Şıxlinski ilə görüşü tamaşaçılarda duyğulu anlar yaşadıb. Hər iki general "Biz birlikdə işğal olunmuş torpaqlarımızı tezliklə düşmən tapdağından azad etməliyik!",- deyə xalqı və ordunu Qarabağ uğrunda mübarizəyə səsləyiblər. "Çırpınırdı Qara dəniz" mahnısının sədaları altında Azərbaycan və Türkiyənin bayraqları əzəmətlə dalğalanıb. Tamaşaçılar bu mənzərəni ayaqüstə alqışlayıblar.



Vətənpərvərlik marşları, mahnılar və rəqslər generalın yubileyinə xüsusi rəng qatıb. Silahlı Qüvvələrin Mahnı və Rəqs ansamblı yenə də öz rəngarəng çıxışı ilə tamaşaçıların rəğbətini qazanıb.

"General Şıxlinski" adının əziz tutulduğu, xatirəsinin hörmət və ehtiramla yad edildiyi üçün ölkə rəhbərinə, baş sərkərdəyə, qədirbilən Azərbaycan xalqına dərin minnətdarlığını bildirib. Generalın " Işğaldan azad ediləcək Qarabağda, qələbə paradında görüşənədək!" sözlərindən sonra mərasim iştirakçıları Vətənə, xalqa, dövlətə sədaqətlərini Azərbaycan Respublikasının Dövlət himnini birlikdə ifa etməklə bildiriblər.

Tədbirin sonunda Respublika Ağsaqqallar Şurasının sədr müavini, akademik Teymur Bünyadov "Bu gün sanki bir möcüzələr adasına, nağıllar dünyasına düşmüşəm. Sanki general Şıxlinskinin, Mehmandarovun, Nuru paşanın əhatəsindəyəm", deyərək kövrəlib. Azərbaycan Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə ağsaqqal təşəkkürünü bildirib. Millət vəkilləri Əhməd Vəliyev, professor Xanhüseyn Kazımlı və Şıxlinskilər ailəsi adından əməkdar incəsənət xadimi Ziya Şıxlinski də akademikin dediklərinə şərik olublar.

Sərbəst güləş üzrə respublika yığma komandasının böyük məşqçisi, əslən Qazaxdan olan "Şöhrət" ordenli, mayor Firdovsi Umudov bu möhtəşəm mərasimin iştirakçısı olmaqdan böyük qürur duyduğunu, bu tədbirin tariximizə hörmət, xalqımıza, dövlətimizə sədaqətin rəmzi olduğunu və xüsusilə də gənclərin qələbəyə inam ruhunda, vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm əhəmiyyət kəsb edəcəyini qeyd edib.

General Şıxlinskinin 150 illik yubileyinə həsr olunmuş mərasim başa çatsa da, tamaşaçılar uzun müddət Olimpiya İdman Kompleksini tərk etməyib, xatirə foto-şəkilləri çəkilib, Şıxlinskilər ulu babaları haqqında xatirələr danışıb, cəbhə bölgələrindən gələn zabit və əsgərlər, kursantlar generalın taleyini bağladığı hərbi peşəni - Vətənə xidmət peşəsini uğurla davam etdirəcəklərinə and içiblər.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar Namiq ARİFOĞLUNUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Çanaqqala zəfərinin 100-cü ildönümündə 36 ölkə rəhbəri iştirakını təsdiqləyib



Türkiyədə Çanaqqala zəfərinin 100-cü ildönümü münasibəti ilə aprelin 24-də keçiriləcək tədbirə 102 ölkənin dövlət və hökumət başçıları dəvət olunub. Türkiyənin "Akşam" qəzetinin verdiyi məlumata görə, artıq 36 ölkənin dövlət və hökumət başçısı tədbirdə iştirakını təsdiqləyib. Bu sayın yaxın vaxtlarda 50-yə çatacağı gözlənilir.

Tədbirdə iştirakını təsdiqləyənlər arasında Azərbaycan prezidenti İlham Əliyev, Avstraliyanın baş naziri Toni Ebbott, Yeni Zelandiyanın baş naziri Con Key, Albaniya prezidenti Buyar Nişani, Somalı prezidenti Həsən Şeyx Mahmud, Britaniya şahzadəsi Çarli və digərləri var.

## Fransua Olland: Kremldə aparılan danışıqlar sülh üçün "son şansdır"



Fransa prezidenti Fransua Olland Moskvada aparılan danışıqları şərh edərkən bildirib ki, bu, Ukrayna ilə bağlı razılığa gəlmək üçün "son şansdır". O hesab edir ki, əks təqdirdə dünya müharibə astanasına gəlib çıxa bilər.

AzərTAc "Figaro" qəzetinə istinadla xəbər verir ki, Fransa lideri deyib: " Əgər biz uzunmüddətli sülh razılaşmasına nail olmasaq, gələcək ssenarini yaxşı bilirik: bunun adı var, bu ssenari müharibə adlanır".

Moskva danışıqlarını bir qədər əvvəl Almaniya kansleri Angela Merkel də şərh edib. Münhen Təhlükəsizlik Konfransında çıxışı zamanı A.Merkel görüşün nəticə verəcəyinə şübhəsini ifadə edib. Bununla belə, onun fikrincə, cəhd göstərməyə dəyərdi.

## Lütfi Zadə ABŞ-da 94 yaşını qeyd edir



Dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadənin 94 yaşı tamam olur. Ona daha çox şöhrət qazandıran banisi olduğu, dünya elmində inqilab hesab olunan qeyri-səlis məntiq nəzəriyyəsidir. 1965-ci ildən işlənib hazırlanan bu nəzəriyyədən dünyanın bir çox aparıcı şirkətləri bəhrələniblər. Lütfi Zadə Kaliforniya Berkli Universitetinin professorudur. O, bu ali təhsil müəssisəsinin ömürlük professoru seçilmiş yeganə şəxsidir. Kaliforniyanın Berkli şəhərində "İnformasiya Texnologiyaları üzrə Zadə İnstitutu" yaradılıb.

Müəllifi və yaradıcısı olduğu 6 mühüm nəzəriyyə dünya elminə inanılmaz töhfələr bəxş edib. O, bir çox xarici ölkə akademiyalarının üzvüdür. Çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülüb və medallarla təltif edilib. Prezident İlham Əliyev elm və texnologiyaların inkişafına verdiyi töhfələrlə mədəniyyətlərarası dialoqun qurulmasında göstərdiyi görkəmli xidmətlərə görə onu "Dostluq" ordeni ilə təltif edib.

## Çarli Çaplinin bir milyon avroluq Oskar mükafatı oğurlanıb



Parisdə bir milyon avroluq oğurluq hadisəsi baş verib. Naməlum şəxslər Amerika Kino Akademiyası tərəfindən təsis edilən və dünya şöhrətli aktyor Çarli Çaplinin 1929-cu ildə layiq görüldüyü ilk Oskar mükafatlarından birini oğulayıblar.

Quldurlar Oskar heykəlciyi ilə yanaşı, hər birinin dəyəri 80 min avro olan bir neçə avtoqələm də oğurlamağa imkan tapıblar.

Hadisə yerində ilkin araşdırmalar aparan polis oğruların əsas hissələri qızıldan olan Oskar mükafatı və qiymətli avtoqələmlər barədə əvvəldən xəbərdar olduqlarını bildirib.

Xatırladaq ki, tanınmış gülüş ustası, aktyor Çarli Çaplin 1929, 1972 və 1973-cü illərdə Oskar mükafatına layiq görülüb.

## Son 14 ildə Ermənistanı 453 min vətəndaş tərk edib



Son 14 ildə Ermənistanı 453 min vətəndaş tərk edib. AzərTAc xəbər verir ki, Parisdə gündəlik nəşr olunan "Ermənistan xəbərləri" jurnalı 8 fevral tarixli nömrəsində Ermənistanı tərk edən əhalinin statistikası ilə bağlı məlumat dərc edib.

Son dövrlərdə ölkə əhalisinin sayının sürətlə azaldığının diqqətə çatdırıldığı məqalədə ermənilər arasında miqrasiyanın geniş şəkil almasının əsl səbəbi kimi ölkə iqtisadiyyatının tənəzzülə uğraması, aclıq və səfalətin hökm sürməsi, korrupsiyaya qurşanan məmurların özbaşınalığı vurğulanır.

Ermənistan statistika idarəsinin məlumatına əsasən, son 14 ildə 453 min vətəndaşın ölkəni tərk etdiyi bildirilir. Məqalədə Ermənistan müstəqillik əldə etdiyi dövrdən ermənilərin ölkəni tərk etmələrinin heç vaxt ara vermədiyi, əksinə, getdikcə daha intensiv şəkil aldığı qeyd olunur.

## İŞİD-in öldürdüyü oğlun atasından amansız qisas



İraqın keçmiş lideri Səddam Hüseynin doğulduğu Tiqrit şəhəri aylardır İŞİD terror qruplaşmasının nəzarətinə keçib. Ötən il terror qruplaşması bu şəhərdə 8 nəfəri başına güllə vurmaqla edam etmişdi. Onlar İraq hökumətinə casusluq etməkdə günahlandırılaraq öldürülmüşdü.

İŞİD-in edam etdiyi 8 nəfər arasında iraqlı Basil Ramazanın 18 yaşlı oğlu Əhməd Basil Ramazan da olub. Oğlunun öldürülməsini heç cür qəbul etməyən 60 yaşlı ata İŞİD-dən intiqam almaq qərarına gəlir. Tiqritdə İŞİD-in postuna "Kalaşnikov" avtomatı ilə hücum edən ata 7 terrorçunu öldürməyi bacarır.

Çoxsaylı terrorçu ilə tək bacara bilməyən 60 yaşlı ata intiqam alarkən öldürülür.

**Hazırladı: Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

# Qəhrəmanlığa aparan yol Vətənə, doğma xalqa sevgidən keçir

## Milli Qəhrəman Mübariz İbrahimovun doğum günü Naftalan şəhərində və hərbi hissələrimizdə təntənəli tədbirlərlə qeyd edildi





***El arasında zamanın sınağından çıxmış bir deyim var ki, qəhrəmanlar və qəhrəmanlıqlar unudulmur. Bu günə qədər əks-sədası kəsilməyən Qarabağ müharibəsi də bu deyimin doğruluğunu təsdiq etdi. Xalqımızın neçə-neçə cəsur oğlu erməni işğalçılarına qarşı mübarizədə rəşadət göstərdi və xalqın yaddaşında əbədiyyətə qovuşdu. Beş il öncə cəbhə bölgəsində düşmənlə qeyri-bərabər döyüşdə şücaət, fədakarlıq göstərərək qəhrəmanlıqla həlak olmuş, həm Azərbaycanda, həm də işğalçı ölkədə böyük əks-səda yaratmış Mübariz İbrahimov da unudulmaz Vətən oğullarından biridir.***

Fevralın 7-si Milli Qəhrəmanımızın doğum günü Naftalan şəhərində və xidmət etdiyi hərbi hissədə Mübariz İbrahimovun xatirəsi təntənəli tədbirlərlə qeyd edildi.

Naftalan şəhərindəki Heydər Əliyev Mərkəzi həmin gün izdihamlı idi. Şəhərin gəncləri, təhsil müəssisələrindən gəlmiş müəllim və şagirdlər, eyni zamanda "N" hərbi hissəsinin zabit və əsgərləri Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr edilmiş mərasimdə iştirak edirdilər. Tədbir "N" hərbi hissəsi və Naftalan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilirdi.




Bizimlə söhbətində polkovnik Həbib Məmmədov bildirdi ki, 7 fevral Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günüdür. Bununla əlaqədar hələ bir ay öncə Mübariz İbrahimovun xatirəsinə həsr edilmiş "Qəhrəmanlıq aylığı" elan edilmişdi. Bir ay ərzində birlik və birləşmələrdə Milli Qəhrəmanımızın həyat və döyüş yolu ilə bağlı silsilə mədəni-kütləvi tədbirlər keçirilib. Ön xətdə döyüş növbəsi aparan əsgərlərimizə qədər bütün şəxsi heyətə Mübariz İbrahimovun hər bir gəncə, hərbi qulluqçuya örnək olan döyüş yolu barədə məlumat verilib, qəhrəmanlığından söhbət açılıb.

Fevralın 7-də isə Naftalan Şəhər İcra Hakimiyyəti ilə birlikdə geniş mərasim planlaşdırdıq. Eyni zamanda birliyimizin bütün hərbi hissələrində yerli gənclər və idman təşkilatları ilə birgə tədbirlər keçirilib. Bütün bu tədbirlər Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun gənclərə daha geniş tanıdılması və örnək göstərilməsi məqsədi daşıyır.

Naftalan Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Möhübbət Bədəlov Mübariz İbrahimovun xatirəsinə həsr edilmiş tədbiri açaraq qəhrəmanın qısa, lakin şərəfli həyat yoluna nəzər saldı. Biləsuvar rayonunun Əliabad kəndində Agakərim kişinin ailəsində dünyaya gəlmiş Mübarizin 2010-cu ilin yayında məhz Goranboy rayonu ərazisində erməni işğalçılarına qarşı cəsarətlə döyüşə atılaraq düşmənin xeyli canlı qüvvəsini məhv etdiyini və bu döyüşdə özünün də igidliklə həlak olduğunu söylədi.

Çıxış üçün söz alan mayor Samir Səfərov qeyd etdi ki, Mübarizi döyüşə aparan bir amal, bir istək idi: Vətən, millət, torpaq təəssübkeşliyi! Onun qəlbinə bir müqəddəs fikir hakim kəsilmişdi: "Məzlumun dostu, zalımın düşməniyəm".

Zabitin sözlərinə görə, 19 iyun 2010-cu il tarixdə gecə bir qrup erməni hərbçisi atəşkəsi pozaraq mövqelərimizə hücuma keçərkən, Mübariz bu döyüşdə xüsusilə fərqlənir. O, hücuma keçən erməni yaraqlılarının həmləsini dəf edərək, qarşı tərəfin xeyli döyüşçüsünü məhv edir.

Zabit fəxrlə bildirdi ki, Mübariz İbrahimovun göstərdiyi qəhrəmanlıq bugünkü gəncliyimiz və Azərbaycan əsgərləri üçün örnəkdir.

Naftalan şəhəri, 2 nömrəli tam orta məktəbin tarix müəllimi Sədrəddin Muradov Azərbaycan xalqının qəhrəmanlıq salnaməsindən danışdı və əslində Mübariz İbrahimovun göstərdiyi şücaətin təsadüfi olmadığını, xalqımızın qanından, genindən gəldiyini söylədi.

Bir faktı qeyd etməyə dəyər ki, "N" hərbi hissəsinin döyüş postlarından biri Milli Qəhrəmanın adını daşıyır. Orada Mübariz İbrahimova həsr edilmiş guşə yaradılıb.



Bu postda döyüş növbəsi aparmaq əsgərlərimiz üçün fəxr hesab edilir. Həmin postda mövqelərimizi düşməndən qoruyan əsgərlər də tədbirə dəvət edilmişdilər.

Çıxış üçün söz "Mübariz" postunda döyüş növbəsi aparan əsgər Cavid Qasımova verildi. Əslən Lənkəran rayonundan olan döyüşçü qeyd etdi ki, Mübariz insanların anadan qəhrəman doğulmadığını, sonradan öz əməlləri ilə bu möhtəşəm zirvəyə ucaldığını sübut etdi. İnsanı qəhrəmanlığa aparan yol isə onun Vətənə, yurda, doğma xalqına olan sevgisindən keçir.

Əsgər iftixar hissilə dedi ki, həmin postda xidmət etməyi təkcə o yox, bütün silahdaşları şərəf hesab edirlər.

Qəhrəmanın düşmənlə təkbətək döyüşdə göstərdiyi şücaət əsgər Cavid Qasımovu möhkəm təsirləndirib və o, Mübarizə şeir də həsr edib.

Sonra Naftalan şəhərindəki 1 nömrəli tam orta məktəbin şagirdləri Milli Qəhrəman Mübariz İbrahimova həsr etdikləri ədəbi-bədii kompozisiyanı nümayiş etdirdilər.

Qəhrəman haqqında lentə alınmış sənədli film də tədbirdə maraqla qarşılandı.

Qəhrəmana həsr edilmiş tədbir vaxtilə onun xidmət etdiyi hərbi hissənin meydançasında davam etdirildi. Tədbirdə "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin sədri Şamil Sabiroglu, "Yeni Yurd" İctimai Birliyinin sədri Mahirə Əsədova çıxış etdilər və nümunəvi xidmətlərilə seçilən döyüşçülərə hədiyyələr təqdim etdilər.

Hərbi hissənin kəşfiyyatçıları tərəfindən hazırlanmış döyüş səhnəciyi ilə davam edən mərasimdə xidmətdə fərqlənmiş hərbi qulluqçuların mükafatlandırılması barədə hərbi hissə komandirinin əmri də şəxsi heyətə çatdırıldı.

"Tərtər" instrumental ansamblının təqdim etdiyi maraqlı konsert proqramı ilə mərasimə yekun vuruldu.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## İdman

### "Bakı-2015" Madridin "Atletiko" komandasına uğur gətirdi



İspaniya La Liqasının 22-ci turunda Madridin iki komandası - "Atletiko" və "Real" komandaları üz-üzə gəliblər. AzərTAc xəbər verir ki, üzərində "Bakı-2015" loqotipi olan formalarla ilk oyuna çıxan "Atletiko" futbolçuları doğma meydanda - "Visente Kalderon" stadionunda kral klubunu 4:0 hesabı ilə darmadağın ediblər. "Atletiko" komandası bu qələbə ilə "Real" ilə aradakı xal fərqini dördə endirib.

### Almaniya təmsilçisi Avropa "Top-16" kubokunda birincilik titulunu qoruyub



Milli Gimnastika Arenasında stolüstü tennis üzrə Avropa "Top-16" kuboku yarışları başa çatıb.

AzərTAc xəbər verir ki, turnirdə kişilər arasında mübarizədə Almaniya təmsilçisi Dmitri Ovtçarov, qadınların yarışında isə avstriyalı idmançı Jia Liu birinci olublar.

Turnirin sonuncu günü gərgin və maraqlı idman mübarizəsi ilə yadda qalıb. Qadınlar arasında mübarizənin finalında Jia Liu Almaniya təmsilçisi Petrissa Solyanı 4:1 hesabı ilə məğlubiyyətə uğradaraq turnirin qalibi adını qazanıb. Kişilərin yarışında isə Dmitri Ovtçarov olduqca gərgin keçən final qarşılaşmasında portuqaliyalı Freytaş Markuş üzərində 4:3 hesabı ilə qələbə qazanaraq titulunu qoruyub.

### "Baku Fires" -"Rafako Hussars Poland": 5-0

Azərbaycanın boks komandası Quba Olimpiya İdman Kompleksində Polşanın "Rafako Hussars Poland" kollektivi ilə üz-üzə gəlib.

Dünya Boks Seriyası (WSB) Liqasının dördüncü turunun görüşü çərçivəsində rinqdə ilk döyüş təmsilçimiz Elvin Məmişzadə (52 kq) ilə polşalı Qrjeqorj Kozlovski arasında keçirilib. Bu döyüşün ardınca Albert Səlimov (60 kq) David Miçelus, Pərviz Bağırov (69 kq) Stiven Donnelli, Soltan Migitinov (81 kq) Jordan Kulinski, Arslanbek Mahmudov (91 kq-dan yuxarı) Mantas Valaviçiusla qarşılaşıb.

APA-nın şimal bürosunun verdiyi məlumata görə, komandamız 5:0 hesabı ilə qalib gəlib. Boksçularımız rəqiblərini məğlub edərək inamlı qələbə qazanıblar.

### Futbol üzrə Topaz Premyer Liqasının XX turuna yekun vurulub

Topaz Premyer Liqasının XX turuna yekun vurulub. AzərTAc xəbər verir ki, Azərbaycan çempionu Ağdamın "Qarabağ" komandası Tofiq Bəhramov adına Respublika stadionunda "Bakı" ilə qarşılaşıb.

Qarşılaşmaya erkən qollarla başlayan "Qarabağ" meydandan böyük hesablı qalibiyyətlə ayrılıb - 4:1.

Turun son oyununda "Xəzər Lənkəran" doğma meydanda paytaxt təmsilçisi "İnter"ə 1:2 hesabı ilə məğlub olub. Digər oyunlarda "Qəbələ" AZAL-a 0:1 hesabı ilə uduzmuşdu. "Neftçi" - "Simurq" oyununda isə qapılara qol vurulmamışdı.

Hesabında 37 xal olan "Qarabağ" komandası turnir cədvəlinə liderlik edir. "İnter" 33 xalla ikinci, hesabında 27 xal olan "Neftçi" isə üçüncü pillədə qərarlaşıb.

### Antik avtomobillərin sərgisi paytaxt sakinləri tərəfindən maraqla qarşılanıb



Fevralın 8-də Bakıdakı "Retro" Avto Klubda antik avtomobillərin sərgisi keçirilib.

AzərTAc xəbər verir ki, 15-dək maşının nümayiş etdirildiyi sərgidə, həmçinin antik əşyalar da tamaşaçılara təqdim olunub.

Klubun təsisçisi Elşən İsmayılov təşkilatın 80-dək üzvü olduğunu söyləyib, sərginin əhəmiyyətindən danışıb. Bildirilib ki, 2003-cü ildən fəaliyyət göstərən klub ümummilli lider Heydər Əliyevin yubileyinə, Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə, 28 May-Respublika Gününə həsr olunan yürüşlər təşkil edib. Həmçinin, Azərbaycan Nəqliyyat Nazirliyinin təşkilatçılığı ilə antik avtomobillərin Qubaya yürüşü keçirilib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*Nəsillərə nümunə*

# Kəngərlilər nəslinin sərkərdə oğlu



Qoca Şərqin qapısı sayılan Naxçıvan zaman-zaman ərənlərə, igidlərə, yadelli işğalçılara qarşı mübarizədə döyüş meydanı olub. Azərbaycanımıza sərkərdələr, generallar, elm, mədəniyyət, incəsənət xadimləri bəxş edən Naxçıvan qalası tarixin hər dönəmində əyilməzlik, dönməzlik rəmzinə çevrilib. Bu qədim diyarın Kəngərlilər nəsli də hərb tariximizə bəxş etdiyi görkəmli generalları, sərkərdələri ilə tanınıb. Kəlbalı xan, İsmayıl xan, Ehsan xan, Hüseyn xan, Cəmşid xan Naxçıvanskilərin adları xalqımızın qəhrəmanlıq salnaməsinin daş yaddaşına əbədi həkk olunub.

Kəngərlilər nəslinin tanınmış nümayəndəsi, Cümhuriyyət Ordusunun zabiti, diviziya komandiri C.Naxçıvanskinin anadan olmasından artıq 120 il ötür. General Cəmşid xan Cəfərqulu oğlu Naxçıvanski 9 avqust 1895-ci ildə Naxçıvan şəhərində anadan olub. O, nəsil şəcərəsində general-mayor II Kalbalı xanın oğlu Cəfərqulu xanın ailəsində dünyaya göz açıb. Qardaşları - III Ehsan xan, III Kalbalı xan, Davud xan, Teymur xan, bacısı Nazlı xanım Cəfərqulu xanın doğma övladları kimi şəcərədə yer tuturlar. O dövrün adət-ənənələrinə uyğun olaraq hərbi peşəyə yalnız zadəgan övladları cəlb olunurdular. Çünki onlarda sadiqlik, etibarlılıq göstəriciləri yüksək idi. Cəmşid də xan nəslinin nümayəndəsi, zadəgan övladı kimi hərb elminin sirlərinə dərindən yiyələnir. O, 1915-ci ildə Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbində təhsil alır. Birinci Dünya müharibəsində müsəlmanlardan təşkil edilmiş süvari eskadronunun komandiri olan C.Naxçıvanski "Brusilov cəbhəsi"nin yarılmasında xidmətlərinə görə 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunur. Avstriya-Rumıniya cəbhəsində üç dəfə yaralanan Naxçıvanski qəhrəman süvari zabiti kimi gümüş silahla mükafatlandırılır, 2-ci, 3-cü, 4-cü dərəcəli Anna, 2-ci dərəcəli Stanislav ordenləri ilə təltif olunur.

Sonradan C.Naxçıvanski başçılıq etdiyi alayla birlikdə doğma Vətəni Azərbaycana dönür. Görkəmli hərb xadimi 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu və Azərbaycan Əlahiddə Korpusu ilə birgə Bakının erməni-daşnak, rus-bolşevik hərbi birləşmələrindən azad edilməsində fəal iştirak edir. Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yaranmasında müstəsna xidmətləri olan C.Naxçıvanski 1920-ci ilin martında Qarabağda (Şuşada) daşnaklara və daxili düşmənlərə qarşı döyüş əməliyyatlarına rəhbərlik edir. Azərbaycan milli ordusunun (1918-1920) zabiti podpolkovnik (polkovnik-leytenant) C.Naxçıvanski xalqına və dövlətinə sədaqətlə xidmət edərək, milli qoşun hissələrinin formalaşmasında bilik və təcrübəsini əsirgəməmişdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

***Azərbaycan kütləvi informasiya vasitələrinin cərgəsinə 23 il bundan öncə, fevral ayının 11-də daha bir qəzet qoşuldu. "Xalq Ordusu", sonradan isə "Azərbaycan Ordusu" adlandırılan Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi orqanı olan qəzetimiz ilk vaxtlardan öz dəsti-xətti və baş verən hadisələrə həssas münasibətilə seçildi.***

# Silahlı Qüvvələrimizin aynası

## "Azərbaycan Ordusu" qəzetinin işıq üzü gördüyü vaxtdan 23 il ötür




Həm ölkəmizdə, həm də regionda mürəkkəb hadisələrin cərəyan etdiyi həmin dövrdə hərbi mətbuat orqanının işıq üzü görməsinə gerçək bir ehtiyac vardı. İlk hərbi qəzetin ərsəyə gəlməsi o zaman, doğrudan da, Azərbaycanın ictimai həyatında bir hadisəyə çevrildi və ölkəmizdə vətənpərvər insanların böyük marağına səbəb oldu. Ən çox sevinənlər isə, şübhəsiz, qəzetin əməkdaşları və onun qədirbilən oxucuları idi.

Hər dəfə qəzetin mətbəə boyası qoxuyan nömrələri işıq üzü görəndə, müxbirlərimiz, digər əməkdaşlarımız oxucuların qəlbinə yol tapmaq üçün əllərindən gələni əsirgəmirdilər. Redaksiyanın kollektivi getdikcə geniş miqyas alan Qarabağ müharibəsini, cəbhədə baş verən qanlı hadisələri operativ işıqlandırmağa, amansız və məkrli düşmənə qarşı ölüm-dirim mübarizəsi aparan Vətən oğullarının döyüş ruhunu yüksəltməyə yardımçı olmağa çalışırdı. "Azərbaycan Ordusu" qəzeti beləcə ilk günlərdən ordumuzun möhkəmlənməsinə xidmət edib, onun uğurlarının carçısına çevrilib. Silahlı Qüvvələrimizin fəaliyyətində baş vermiş əksər hadisələr qəzetin səhifələrində də öz əksini tapıb.

Bu hadisələr burulğanında sanki vaxtın necə keçdiyini hiss etməmişik. Budur, qəzetimizin araya-ərsəyə gəldiyi, ilk sayının işıq üzü gördüyü həmin mürəkkəb dövrdən nə az-nə çox - düz 23 il keçir. İndiyədək qəzetimizin 1930 sayı işıq üzü görüb. Bu qədər nömrənin hazırlanması redaksiya kollektivi üçün heç də asan olmayıb. Müharibədə uğursuz döyüşlərə, ağır və əvəzolunmaz itkilərə hamı kimi "Azərbaycan Ordusu"nun kollektivi də dərindən kədərlənib. Bir sözlə, Vətənin, ordunun sevinci sevincimiz, kədəri kədərimiz olub.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə və Silahlı Qüvvələrdə baş vermiş köklü dəyişikliklər, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordumuzun hərtərəfli təminatında şahidi olduğumuz tərəqqi, döyüş hazırlığı sahəsində son illərdə əldə edilən böyük uğurlar qəzetimizin əsas mövzularına çevrilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bilavasitə nəzarətilə keçirilən irimiqyaslı hərbi təlimlər ilk öncə qəzetimizdə işıq üzü görüb.

Tez-tez cəbhə bölgələrinə ezam edilən əməkdaşlarımız ön xətdən operativ və maraqlı reportajlar hazırlayıb, düşmənlə təmas şəraitində döyüş növbəsi aparan Vətən oğulları barəsində silsilə yazılar qələmə alaraq oxucularımızın diqqətinə təqdim ediblər. Bir sözlə, ölkə ictimaiyyəti Silahlı Qüvvələrimizin fəaliyyətində əksini tapmış hadisə və proseslərdən "Azərbaycan Ordusu" qəzetinin səhifələrindən ətraflı xəbər tutub.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin bölmələri müxtəlif beynəlxalq hərbi tədbirlərdə - təlimlərdə, kurslarda, seminarlarda öz bilik və bacarıqlarını artırır, həmçinin, nəyə qadir olduqlarını nümayiş etdirirlər. Azərbaycan rəhbərliyinin dünya standartlarına cavab verən müasir ordunun formalaşdırılması məqsədilə həyata keçirdiyi siyasət nəticəsində ordumuz gün-gündən öz döyüş qabiliyyətini artırır, maddi-texniki bazasını möhkəmləndirir. Bütün bu proseslər "Azərbaycan Ordusu" qəzetinin səhifələrində öz əksini tapır və bundan sonra da tapacaqdır.

İnanırıq ki, Müdafiə Nazirliyinin mətbu orqanı olan "Azərbaycan Ordusu" qəzeti Silahlı Qüvvələrimizdə Vətənə sədaqətlə xidmət edən hər bir zabit, gizir və əsgər üçün doğma qəzetə çevrilməyi bacarıb. Hər halda redaksiyamızın əməkdaşları Vətən oğullarının istək və arzularının qəzetin səhifələrində əksini tapması üçün bilik və bacarıqlarını əsirgəməyiblər. "Azərbaycan Ordusu" qəzeti bundan sonra da ordumuzun hər bir uğuruna operativ və dolğun ayna tutmağa çalışacaq, qələbə soraqlı yazılarla oxucularımızın görüşünə tələsəcək.

**Ə.MƏHƏRRƏMOĞLU,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 286
Nüsxə 4600